DOI: https://doi.org/10.36719/2663-4619/89/117-121

**Bahar Mehdiyeva**
Bakı Dövlət Universiteti
magistrant
bahar.mehdiyeva1989@gmail.com

# HAKİMİYYƏT BÖLGÜSÜ PRİNSİPİ

**Xülasə**

Hakimiyyətlər bölgüsü nəzəriyyəsi yarandığı andan bu günə qədər hər dövrdə önə çəkilmiş və demokratik dövlətlərin formalaşmasında əsas prinsiplərdən biri kimi qəbul edilmişdir. Müxtəlif dövlətlərdə hakimiyyətlərin bölünməsi prinsipinin özünəməxsus xüsusiyyətləri mövcuddur. Hakimiyyətlərin bölünməsi prinsipinə görə dövlət orqanları qanunverici, icraedici və məhkəmə orqanlarına bölünürlər. Bu, dövlət orqanlarının hüquq ədəbiyyatında ən geniş yayılmiş təsnifatıdır. Bütün üç hakimiyyət orqanlarının yerinə yetirilməsi zəruri olan fəaliyyəti Konstitusiyaya əsaslanır. Hakimiyyət bölgüsü qarşılıqlı nəzarətə və bu orqanların müstəqilliyinə əsaslanır. Bu orqanların qarşılıqlı fəaliyyəti hüquqla nizama salınır. Konstitusiyanın üstünlüyü, hüququn aliliyi, dövlətin hüquqi xarakterinə zəmanət vermələri tələb olunur.

***Açar sözlər:*** *hakimiyyət bölgüsü, qanunverici orqan, icraedici orqan, prezidentli respublika, parlament sistemi*

**Bahar Mehdiyeva**
Baku State University
master student
bahar.mehdiyeva1989@gmail.com

## The principle of separation of powers

**Abstract**

The theory of separation of powers from its inception to the present day featured in every era and in the formation of democratic states has been accepted as one of the main principles. The principle of separation of powers in different states has its own characteristics. According to the principle of separation of powers, state bodies are divided into legislative, executive and judicial bodies. This is the most widespread classification of state bodies in the legal literature. All three branches of government must perform their activities based on the Constitution. The separation of powers is based on mutual control and independence of these bodies. The mutual activity of these bodies is regulated by law. They are required to guarantee the supremacy of the Constitution, the rule of law, and the legal character of the state.

***Keywords:*** *separation of powers, legislative body, executive body, presidential republic, parliamentary system*

## Giriş

Hakimiyyət bölgüsü nəzəriyyəsinin əsaslarını vəhdətdə qoyan şəxs kimi fransız mütəfəkkiri Monteskye göstərilsə də, müasir konstitusionalizm tarixində bu prinsipi azadlığın təminatı olaraq ilk dəfə dilə gətirən ingilis siyasi mütəfəkkiri Con Lokk olmuşdur. Lakin bu nəzəriyyəni nəzəriyyənin ciddiliyi və nəzəri bütövlüyü çərçivəsində ilk səsləndirən Aristotel göstərilir. Aristotelə görə dövlət üç orqan tərəfindən idarə olunur. Aristotel hesab edirdi ki, əsas orqan qanunların müzakirəsini həyata keçirən orqandır, ikinci orqan hökümətdir, nəhayət üçüncü orqan məhkəmələrdir və onlar ədalət mühakiməsini həyata keçirirlər. Görüldüyü kimi, Aristotel müasir mütəfəkkirlərdən çox əvvəllər hakimiyyət bölgüsü prinsipinin əsasını qoymuş, dövlətin üç ayrı qüvvədən formalaşdığı fikrini qəbul etmişdir.

Con Lok özünün “Dövlət haqqında iki traktat” kitabında dövlətin idarə olunmasında qanunvericilik, icraedicilik və konfederasiya kimi üç qüvvə nəzərdə tutulurdu. Lok konfederativ gücü, xarici işlər ilə əlaqəli siyasətləri təyin etmə, müharibə və sülhə qərar vermə, başqa dövlətlərlə ittifaqlar yaratma, müqavilələr bağlamaq səlahiyyətinə malik olan qüvvə kimi müəyyən edilir. Lokk bildirir ki, bu üç səlahiyyət arasında ali hakimiyyət qanunvericilik hakimiyyətidir. İcra və federativ hakimiyyət qanunvericiliyə tabedir. İcra hakimiyyətinə həvalə edilmiş qanunlar hər hansı bir neqativ səbəbə və ya qeyri-qanuni səlahiyyət aktına görə sui-istifadə halında cəzalandırma səlahiyyəti qanunverici orqandadır. Lokk nəzəriyyəsinin formalaşmasında və inkişafında yaşadığı dövrdə İngiltərəni əsas götürmüşdür. Bugünkü mənada hakimiyyət bölgüsü nəzəriyyəsi ilə qəbul edilən məhkəmə hakimiyyəti Lokk tərəfindən ayrıca bölgü olaraq görülməmişdir. Lokk məhkəmə hakimiyətini daha çox qanunverici orqandan asılı olan fəaliyyət kimi qiymətləndirirdi.

Müasir dövrümüzdə hakimiyyət bölgüsü nəzəriyyəsi deyilincə ağıla gələn ilk ad Monteskyedir. Əsasən Monteskyenin adı ilə bağlı olan hakimiyyət bölgüsü nəzəriyyəsi, 1789-cu il tarixli Amerika və 1791-ci il tarixli Fransa Konstitusiyalarından başlayaraq bir çox hüquqi sənəddə öz əksini tapmışdır. Bununla belə, bu nəzəriyyə daha çox siyasi xarakter daşıyırdı. Monteskyenin hakimiyyətin bölünməsi prinsipini müdafiə etməsi hakimiyyətlərin bölünməsini azadlıqların təminatı kimi görməkdən irəli gəlirdi. Monteskyeyə görə, iki, hətta üç qüvvənin eyni əldə cəmləşməsi tiranlığa gətirib çıxarır. Monteskyeyə görə, azad dövlətdə azad ruha malik hər bir fərd özünü idarə etməli olduğu kimi, bütövlükdə xalqın da özünü idarə etmək iradəsi, yəni qanunvericilik səlahiyyəti olmalıdır. Özü bütövlükdə bunu edə bilmədiyi üçün bu öz nümayəndələri vasitəsilə edilməlidir. Buna əsasən xalq ancaq öz nümayəndələrini seçməklə idarəetməyə cəlb olunmalıdır. Hüquq ədəbiyyatında qeyd edildiyi kimi hakimiyyətin bölünməsi prinsipinin mahiyyəti ondan ibarətdir ki, dövlətdə demokratik siyasi rejim yalnız dövlət hakimiyyətinin funksiyalarının müstəqil dövlət orqanları arasında bölüşdürülməsi şərti ilə müəyyən edilə bilər (Şükürov, 2012: 205).

Hüquqi baxımdan hakimiyyətlər arasında münasibətlər klassik hakimiyyət bölgüsünə əsaslanır və əsas məqsədi fərdi hüquq və azadlıqların qorunmasıdır. Hakimiyyət bölgüsü prinsipini irəli sürənlər idarəçilikdə zülmün qarşısını almaq üçün bir yol axtarırlar. Bunun həllini də qüvvələrin bir əldə toplanmamasında müəyyən etmişlər. Hakimiyyətlərin bölünməsi nəzəriyyəsi, dövlət hakimiyyətini məhdudlaşdırmaqla, şəxslərin əsas hüquq və azadlıqlarını qorumaq məqsədi ilə, dövlət hakimiyyətini qanunverici, icraedici və məhkəmə hakimiyyəti olmaqla üç hissəyə ayirib, bunlardan hər birinin bir-birindən asili olmayan üç ayrı orqana verilməsini müdafiə edən bir nəzəriyyədir.

Müasir dövlət anlayışında hökumət sistemlərinin təsnifatı, dövlətin hüquqi funksiyaları nəzərə alınaraq və hakimiyyətlərarası münasibətlər vasitəsilə həyata keçirilir. Dövlət öz hüquqi funksiyalarına görə qanunverici, icra və məhkəmə olmaqla üç hakimiyyətə ayrılır (Ərdoğan, 2017: 69). Qanunvericilik hakimiyyəti, funksiyasına görə qayda yaradandirsa, icra hakimiyyəti qaydaların icraçısıdır. Üçüncüsü, məhkəmə hakimiyyətinin funksiyası son nəticədə mübahisələri həll etmək və onlara nəzarət etməkdir. Hökumət sistemlərinin təsnifatında, ümumiyyətlə, qanunvericilik və icra hakimiyyətləri arasındakı əlaqə əsas götürülməklə yanaşı, məhkəmə hakimiyyəti, məhkəmənin müstəqilliyi prinsipi çərçivəsində qiymətləndirilir və ayrıca, müstəqil hakimiyyət olması qəbul edilir. Müstəqil məhkəmə sisteminin mövcudluğu plüralist demokratiyaların əvəzedilməz əsası kimi qəbul edilir. Lakin qanunvericilik və icra hakimiyyətləri siyasi xarakter daşıdığı halda, məhkəmə hakimiyyəti siyasət həyata keçirən deyil, bu fəaliyyətləri həyata keçirən siyasi güclərə nəzarət etmək iqtidarındadır.

Hökumət sistemləri “hakimiyyətlərin birliyi” və “hakimiyyətlər bölgüsü”nə görə iki əsas kateqoriyaya bölünür. Tarixi prosesdə dövlətin əsas səlahiyyətlərinin icra orqanında cəmləşməsinə iki misal mövcuddur. Bunlar “mütləq monarxiya” və “diktatura” idarəetmə formalarıdır. Bu idarə sistemində icra hakimiyyəti bu qanunların həm qanunverici, həm də icraçısıdır. Bu sistemlərdə icra, qanunverici və hətta məhkəmə səlahiyyətləri bir şəxsin və ya müəyyən bir qrupun əlindədir. Birlik

əsaslı hökumət sistemlərinin başqa bir növü qanunverici və icraedici orqanlarının qanunverici orqanda birləşməsidir.

Dövlət hakimiyyətinin qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinə bölünməsi dövlətdə qanunların qəbulu, onların icrası və ədalət mühakiməsinin həyata keçirilməsi-bu qaydaları pozanların cəzalandırılması, qanunvericiliyin tətbiqi ilə bağlı mübahisələrin, problemlərin həll edilməsi kimi bu üç funksiyanın həyata keçirilməsi zəruriyyətinə əsaslanır (Əsgərov, Nəsirov, İsmayılov, 2005: 123).

Hakimiyyət bölgüsünə əsaslanan hökumət sistemləri özlüyündə üç hissəyə bölünür. Qüvvələrin kəskin və sərt şəkildə ayrıldığı idarəetmə sistemi prezidentlik adlanırsa, yumşaq və tarazlı şəkildə bir-birindən ayrılan hökumət sistemi parlament sistemi adlanır. Sonrakı prosesdə ortaya çıxan və ifadə olunan bu iki hökumət sisteminin ümumi hakimiyyət xüsusiyyətlərinə malik olan qarışıq sistemə yarı-prezident idarəetmə sistemi deyilir. Hakimiyyətin bölünməsi nəzəriyyəsi ən ümumi tərifi ilə dövlət hakimiyyətinin qanunvericilik, icra və məhkəmə hakimiyyəti daxil olmaqla, bu orqanlar arasında paylaşılmasını nəzərdə tutur. Dövlət hakimiyyətinin qüvvələr arasında paylaşılaraq zalım rejimlərin yaranmasının qarşısını alan bu nəzəriyyə, eyni zamanda insanların əsas hüquq və azadlıqların təmin edilməsində mühüm rol oynayır. Bir tərəfdən nəzəriyyə yuxarıda qeyd olunan funksiyanı yerinə yetirirsə, digər tərəfdən demokratik hökumət sistemlərinin təsnifatında da mühüm rol oynayır. Çünki hökumət sistemlərinin ən əsas prinsipini hakimiyyət bölgüsü nəzəriyyəsi təşkil edir. Demokratik konstitusiya dövlətinin üç əsas funksiyası, yəni qanunvericilik, icra və məhkəmə hakimiyyəti və bu funksiyaları yerinə yetirən üç əsas orqanı mövcud olur. Dövlətin bu əsas orqanlarının quruluşu, səlahiyyətləri və qarşılıqlı əlaqəsi bizə dövlət sistemlərini göstərir. Bu gün demək olar ki, bütün demokratik dövlətlərin hökumət sistemləri, İsveçrə kimi bəzi demokratik ölkələrdə tətbiq edilən parlament idarəetmə sistemi istisna olmaqla, hakimiyyət bölgüsünə uyğun qurulmuşdur və əlaqəli nəzəriyyə demokratik konstitusion dövlətlərin əsas prinsipi kimi meydana çıxır. İsveçrədə tətbiq edilən parlament idarəetmə sistemi qüvvələrin birliyinə əsaslanmaqla yanaşı, demokratik idarəetmə sistemi isə kimi təsvir edilir. Akçalının tərifinə görə, hakimiyyət bölgüsü nəzəriyyəsi "dövlətin üç əsas orqanı olan qanunvericilik, icra və məhkəmə hakimiyyətinin vəzifələri, səlahiyyətləri və məsuliyyətlərinin konstitusiya çərçivəsində aydın şəkildə müəyyən edilməsi və bir-birindən fərqləndirilməsidir" (Akchalı, 2016: 66). Demokratik idarəetmənin formalaşmasında hakimiyyət bölgüsü nəzəriyyəsi, hakimiyyətdə özbaşınalığın qarşısının alınması və ədalətli idarəetmə formasının qurulmasında, insan hüquq və azadlıqlarının qorunmasında mühüm rol oynayır. Gözlərin də dediyi kimi, "necə ki, nöqtə, üç bərabər qüvvələrlə müxtəlif istiqamətlərdən çəkildikdə sabit qalırsa, dövlət də üç ayrı qüvvə tərəfindən çəkilsə, sabit qalacaq" (Gozler, 2011).

Səlahiyyətlərin bölgüsü nəzəriyyəsi bu məqsədlər çərçivəsində fəaliyyət göstərməklə yanaşı, dövlətlərin idarəetmə sistemlərinin formalaşmasında, eyni zamanda demokratik konstitusiyaların təsnifatında mühüm rol oynayır. Hökumət sistemlərin müəyyən edilməsində xüsusilə, qanunvericilik və icra hakimiyyəti orqanları arasındakı münasibətləri nəzərə alınmaqla, bütün demokratik ölkələrdə məhkəmə hakimiyyəti müstəqil və qərəzsiz olması prinsipcə hamı tərəfindən qəbul edilir.

Prezident üsul-idarəsi, parlament və yarı-prezident sistemləri demokratik idarə etmə formaları hesab olunur. Bu sistemlərin hər biri liberal konstitusionalizmin əsas prinsiplərinə əsaslanır. Bu məqsədlə, hər üç sistemdə də: xalqin suverenliyi, hakimiyyət bölgüsü prinsipi, çoxpartiyalı siyasi həyat və azad seçkilər əvəzedilməz elementlərdir.

Şübhəsiz ki, prezident üsul-idarəsi öz təsirini ən güclü şəkildə qanunvericilik prosesi üzərində hiss etdirir. Məlum olduğu kimi, prezident sistemində qanunvericilik və icra hakimiyyətləri orqanlarının bir-birinə nəzarət etməsi sistemin mühüm xüsusiyyətidir. Digər tərəfdən, prezident idarəetmə sistemində icra hakimiyyəti orqanı müstəqil şəkildə formalaşır və qanunvericilik qarşısında heç bir məsuliyyət daşımır. "İmpiçment" proseduru istisna olmaqla, icra başçısı olan prezidentin qanunverici orqanın etibarsızlıq səsverməsi ilə vəzifədən uzaqlaşdırılması mümkün deyil. Prezidentlik sistemində qanunvericilik və icra hakimiyyəti arasında üstünlük yoxdur, orqanlar

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 2.255. 2023 / Cild: 17 Sayı: 4 / 117-121 ISSN: 2663-4619
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 2.255. 2023 / Volume: 17 Issue 4 / 117-121 e-ISSN: 2708-986X

arasında tarazlıq var. Bu balansda hər iki orqan bir-birindən ayrılmadan öz şərtlərinə uyğun işləyir. Prezidentlik sistemindən danışarkən, qeyd etmək lazımdır ki, sistemin ilk nümunəsi 1787-ci il ABŞ Konstitusiyasına əsaslanır.

Prezident üsul-idarəsinin fərqləndirici xüsusiyyəti onun hakimiyyət bölgüsünə əsaslanmasıdır. Başqa sözlə, bu sistemdə hakimiyyət bölgüsü prinsipi parlament sistemindən daha çox realdır. Çünki prezident sistemində icraedici orqan qanunverici orqandan həm funksional, həm də üzvi olaraq ayrıdır. Ancaq bu ayrılıq iki qurum arasında bəzi əməkdaşlıq və qarşılıqlı tarazlaşdırma mexanizmləri ilə müəyyən qədər yumşaldılıb. Məsələn, prezident əsasən parlamentə aid olan qanunvericilik funksiyasında iştirak edir (razılıq), həm onu zəruri hallarda dayandırır (veto); digər tərəfdən, qanunverici orqan prezidentin təyinatlarını təsdiq edərək icrada dayandirma rolunu oynayır, hətta son dərəcə müstəsna hal olaraq, qanunverici orqan konstitusiyaya uyğun olaraq prezidentə impiçment tətbiq edə bilər.

Prezidentlik sistemi ilk dəfə Amerika Birləşmiş Ştatlarında (ABŞ) hazırlanmış və tətbiq edilmiş sistemdir. ABŞ prezidentlik sisteminin prototipi kimi göstərilir. Prezidentlik sistemin tərifi ilə bağlı çoxlu mübahisələr var. Şugart və Carey qanunvericilik və icra hakimiyyətinin xalq tərəfindən seçilməsini, müəyyən olunmuş səlahiyyət müddətlərini mövcud olmasını və bir-birinin səlahiyyətlərinə xitam verə bilməmək, həmçinin prezidentə veto kimi müxtəlif dərəcələrdə qanunvericiliklə bağlı konstitusiya səlahiyyətlərinin verilməsini prezidentlik sistemin tərifində meyar kimi qəbul edirlər (Shugart, 1991: 11).

Prezident üsul-idarəsinin bir üstünlüyü ondan ibarətdir ki, o, sabit idarəetməni təmin edir. Prezidentlik sistemi təmsilçi demokratik rejim növlərindən biridir və sistemin ən əsas xüsusiyyəti qüvvələrin ayrılmasına əsaslanmasıdır (Turhan, 1993: 32).

ABS sərt səlahiyyətlər bölgüsünün göstəricisi kimi Amerika Konqresi seçkiləri ilə İcra hakimiyyətinin yeganə sahibi olan prezident seçkiləri müxtəlif vaxtlarda həyata keçirilir və beləliklə, bu iki səlahiyyət fərqli seçki sistemlərinə tabedir. Bu baxımdan demək olar ki, bir senator və ya nümayəndənin icra hakimiyyətində və ya prezidentin konqres üzvü olmağı mümkün deyil. Konqres Senat və Nümayəndələr Palatası adlanan iki qanadlı strukturu mağlikdir. İki fərqli məclisin olması ABŞ-ın konfederasiya quruluşundan federasiya idarəçiliyinə keçid zamanı koloniyaların mövcudluğunu təmin etmək səyləri nəticəsində yaranmışdır. ABŞ-da tətbiq olunan prezident sistemində həm qanunverici, həm də icra hakimiyyəti güclüdür. ABŞ-ın güclü qanunverici orqanı var. Meksika və Venesuela kimi Latın Amerikası ölkələrində qanunverici orqan zəifdir. Bu ölkələrin prezidentləri son dərəcə güclüdür.

Azərbaycan Respublikasının Konstitusiyası dövlət hakimiyyətinin təşkili əsası kimi hakimiyyətin bölünməsi prinsipini təsbit edərkən, mövcud reallıqlar, dövlətçilik ənənələri, xalqın milli-mədəni xüsusiyyətləri, konstitusiya ilə müəyyən olunan dövlət idarəetmə forması nəzərə alınmış və "çəkindirmə və tarazlaşdirma" prinsipinə dayanan özünəməxsus bir hakimiyyət bölgüsü mexanizmi işlənib hazırlanmışdır (Nəsirov, 2016: 30). "Azərbaycan Respublikası Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktı ilk dəfə olaraq Azərbaycan Respublikasında hakimiyyətin bölgüsü prinsipini təsbit etdi. Azərbaycan Respublikası Konstitusiyasında 7-ci maddəsinin 3-cü hissəsində deyilir: "Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətin bölünməsi prinsipi əsasında təşkil edilir".

Parlamentlərin dövlət mexanizmində yerinə və müvafiq olaraq onların funksiyalarına gəldikdə isə hakimiyyət bölgüsünün nəzəriyyəçiləri C.Lokk və Monteskye onların rolunu əsasən qanunvericilik funksiyası ilə məhdudlaşdırırdılar, amma eyni zamanda Russo xalq suverenliyinin bölünməzliyinin ardıcıl tərəfdarı − ali hakimiyyətin vahidliyi ideyasını əsaslandırırdı. Buradan isə qanunverici hakimiyyətin icraedici hakimiyyətə nəzarət etmək hüququ bir nəticə kimi hasil olurdu (Straşun, 2007: 515). Demokratik dövlət quruluşunda ali nümayəndəli və qanunverici orqan parlamentdir (Chirkin, 2000: 261).

Dövlətin ən mühüm orqanlarından biri olan qanunverici orqanın strukturu ölkələrə uyğun olaraq fərqlənə bilər. Dünyada tək və ya ikipalatalı strukturlar mövcuddur və bu strukturları heç bir kateqoriyaya görə təsnif etmək olmaz. Parlamentlərin sayını təyin edərkən həmin ölkənin federal və

ya unitar quruluşa malik olması vacib bir faktordur. Dünyadakı ikipalatalı strukturlara nəzər salındıqda, xarakterine görə iki fərqli ikipalatalı parlamentlərin tətbiqi görüləcək. Bunlardan birincisi federal düvlətlərdəki federal ehtiyacları ödəmək üçün qurulmuş ikipalatalı sistemlər, ikincisi siyasi xarakterli ikipalatalı sistemlərdir. Federal dövlət quruluşuna malik olan ştatlarda ikipalatalı sistem, dövlət sisteminin təbii nəticəsi kimi özünü göstərir. Amerikanı misal çəksək, millətin bütövlüyü məqsədilə ştatların əhalisinin sayına görə nümayəndələr göndərdikləri birinci palatadan və dövlət birliyi baxımından əhalisinin sayından asılı olmayaraq bərabər sayda nümayəndə göndərdiyi ikinci palatadan ibarət olmaqla ikipalatalı qanunverici orqanın yarandığını söyləmək olar. Siyasi ikipalatalı sistemlər üçün isə tarixi inkişaf və ya ölkədəki siyasi şəraitin bir zərurəti olaraq ortaya çıxdığını söyləmək səhv olmaz. Unitar quruluşa malik olan və həm də ikipalatalı sistemdən istifadə edən ölkələrə İngiltərəni misal göstərə bilərik. İngiltərədə tarixi səbəblərdən yaranan ikipalatalı sistem hələ də mövcuddur (Atar, 2018: 216).

## Nəticə

Beləliklə, hakimiyyət bölgüsü nəzəriyyəsi dövlət adlandırıla bilən hər bir siyasi birlikdə bir-birindən fərqli qüvvələr mövcud olduğu və bu səlahiyyətləri qanunvericilik, icra və məhkəmə kimi üç yerə bölünə biləcəyi, azadlıqları təmin etmək üçün bu qüvvələrin müstəqil və fərqli əllərdə olması fikrinə əsaslanır. Demokratik ölkələrdə ali dövlət hakimiyyət orqanları bərabər hüquqludurlar. Onlar bir-birinə tabe olmadan qarşılıqlı asılılıqdadırlar. Hakimiyyətin bölünməsi demokratiyanın üzvi ifadəsidir.

## Ədəbiyyat

1. Şükürov, N. (2011). Azərbaycan Respublikası Milli Məclisinin Konstitusiya Hüquqi Statusu. Bakı: Hüququ ədəbiyyatı, 307 s.
2. Erdoghan, M. (2017). Introduction to Constitutional Law. 1st Edition. Ankara: Law Publications, s.207.
3. Əsgərov, Z., Nəsirov, E., İsmayilov, M. (2005). Azərbaycan Respublikasının Konstitusiyası və hüququnun əsasları. Dərslik. Bakı: Qapp-poliqraf, 376 s.
4. Akchalı, P. (2016). Introduction to Comparative State Systems. Ankara: Imge Publishing.
5. Gozler, K. (2011). General Principles of Constitutional Law. Bursa: Ekin Bookstore.
6. Shugart, Mathew Soberg, Carey, John M. (1992). President and Assemblies: Constitutional Design and Electoral Dynamics, Cambridge University Press, s.19.
7. Turhan, M. (1993). Government Systems. Ankara: Gundoghan Publications.
8. Nəsirov, E. (2016). Dövlət hakimiyyətinin təşkilinin prinsipi kimi hakimiyyət bölgüsü prinsipinin Azərbaycan Respublikasının Konstitusiyasında təsbiti. Bakı: Qanun, № 01, s.29-39.
9. Azərbaycan Respublikasının Konstitusiyası. https://www.e-qanun.az/framework/897
10. Straşun, B.A. (2007). Xarici ölkələrin konstitusiya hüququ. Dərslik. Bakı: "Qanun" nəşriyyatı, 727 s.
11. Chirkin, V.E. (2000). Gosudarstvovedenie. M.: Yurist, 406 s.
12. Atar, Y. (2017). Turkish Constitutional Law. Konya: Mimoza Publications.

Göndərildi: 14.12.2022 Qəbul edildi: 19.03.2023